# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Zəngəzur dəhlizinin strateji əhəmiyyəti Hörmüz boğazını da üstələyə bilər**




9

SƏS
№ 151 (7319)
23 avqust 2025-ci il.
Qiyməti 60 qəpik

# Xəzərə açılan iki qapı!




2

*Avaza şəhərində Türkmənistan-Azərbaycan-Özbəkistan formatında üçtərəfli görüş keçirilib*

## Dünyada su böhranı: Təhlükə qapımızı kəsdirib, Azərbaycanı nə gözləyir?



*Son dövrlərdə dünyada iqlim dəyişmələri, sənayenin sürətli inkişafı, əhalinin çoxalması və içməli su ehtiyatlarına təzyiqin artması özü ilə çoxsaylı problemlər gətirib. Bu isə öz növbəsində suvarma suyu və içməli su ilə təminatın çətinləşməsinə səbəb olub.*

10

**Qış tədarükündə ehtiyyatlı olun: zəhərlənə bilərsiniz**



15

**Avtomobillərlə aparılan müharibə**



15

**Turistlər üçün ən əlverişli bölgələr - qiymətlər necədir?**



8

## Dəyərsiz "təhlükəsizlik zəmanətləri"



12

## Qarabağ iqtisadiyyatının onurğası: FÜZULİ



7

# Xəzərə açılan iki qapı!






*Avaza şəhərində Türkmənistan-Azərbaycan-Özbəkistan formatında üçtərəfli görüş keçirilib*







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun dəvəti ilə avqustun 22-də Türkmənistana işgüzar səfər edib. Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub. Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidentinə ölkələrimizin Xəzər dənizi ilə birləşdiyini deyib və ikitərəfli görüşün məhsuldar olacağına əmin olduğunu bildirib. Bildirilib ki, ikitərəfli görüşdən başqa, həmçinin Türkmənistan-Azərbaycan-Özbəkistan formatında üçtərəfli görüşün keçirilməsi də planlaşdırılır. Bu isə eyni regionda yerləşən üç ölkənin qardaş xalqları arasında gələcəkdə daha böyük əməkdaşlıq potensialı yaradacaq. “Öz adımdan, Prezidentin və bütün Türkmənistan xalqının adından bir daha qeyd etmək istəyirəm ki, Sizin səfəriniz bizim üçün bayramdır, sevindirici xəbərdir. Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm”, deyə Berdiməhəmmədov xüsusi olaraq vurğulayıb.***

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü, minnətdarlığını bildirib. Xatırladıb ki, keçən ay Bakıda, Füzulidə, Şuşada görüşlər keçirildi və iki ölkə arasındakı dostluq, qardaşlıq əlaqələri xalqlarımızın iradəsinə əsaslanır. Xalqlarımız qardaşdır, dostdur, əsrlər boyu bir-biri ilə yaxın olublar. İlham Əliyev Berdiməhəmmədovun təşəbbüsü ilə Türkmənistan, Özbəkistan, Azərbaycan rəhbərlərinin üçtərəfli görüşünün keçirilməsini çox yüksək qiymətləndirib. Xalqlarımızın ortaq tarix, mədəniyyət, dil və dinin birləşdirdiyini qeyd edib, qardaş ölkələrin məsələlərinin üçtərəfli formatda müzakirə edilməsinin çox böyük məna daşıdığını, bunun çox böyük faydası və gözəl nəticələri olacağını vurğulayıb.

### Yüksəksəviyyəli və təkbətək görüşlər

Türkmənbaşı şəhərində Türkmənistan, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında yüksəksəviyyəli görüş keçirilib və bir sıra sənədlərin imzalanması mərasimi olub. Sonra hər üç ölkənin lideri yüksəksəviyyəli görüşün yekunlarına dair mətbuata birgə bəyanatla çıxış ediblər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə geniş tərkibdə görüşü olub. Azərbaycan Prezidentini və nümayəndə heyətinin üzvlərini salamlayan Qurbanqulu Berdiməhəmmədov dövlətimizin başçısına dəvəti qəbul edib gəldiyinə görə minnətdarlıq edib: “Bu ilin iyulunda Azərbaycana səfərim çərçivəsində mənə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Mən Azərbaycanın gözəl, mənzərəli yerlərini ziyarət etdim. Səfər zamanı mühüm məsələlər müzakirə olundu. Ölkələrimiz arasında münasibətlər başlanğıcını tarixin dərinliklərindən götürür, ənənələrimiz oxşardır və bunlar bizi birləşdirən amillərdir. Siyasi, diplomatik, iqtisadi-ticari, mədəni-humanitar münasibətlərimizi bu təməl üzərində inkişaf etdiririk. Biz bu məsələləri indiki görüş əsnasında da müzakirə edəcəyik”.

Türkmənistan Xalq Məsləhətinin sədri qeyd edib ki, bugünkü danışıqlar münasibətlərimizə təkan verir: “Bu görüş çərçivəsində əməkdaşlığın mühüm məsələlərini nəzərdən keçiririk. Münasibətlərimiz əməkdaşlığın yüksək səviyyəsinə çatır, onların inkişafına böyük stimul verilir. Əlaqələrimizin genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd etmək istəyirəm. Bu kontekstdə Türkmənistan-Azərbaycan münasibətlərinin inkişafı məqsədilə yeni təşəbbüslər irəli sürəcəyik.

İqtisadi-ticari əməkdaşlığın inkişafı əlaqələrimizin gündəliyində duran mühüm istiqamətdir. Bu istiqamətdə artıq böyük işlər görülüb. Bu əlaqələrin bundan sonra da inkişaf etdirilməsi, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, enerji, nəqliyyat, toxuculuq sənayesi kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlarımız var. Əməkdaşlığın mühüm sahəsi mədəni-humanitar əlaqələrdir. Onların inkişafı prioritet əhəmiyyət daşıyır. Bu kontekstdə əməkdaşlığın mühüm tərkib hissəsi qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi, təhsil, mədəniyyət, turizm, mədəni dəyərlərimizin - xalçaçılıq, atçılıq, tətbiqi sənətin inkişafı sahələrində tədbirlərin keçirilməsidir. Bu istiqamətdə mədəni mübadilə və əlaqələrin inkişafı üçün bütün imkanlarımız mövcuddur”.

Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, qardaş türkmən xalqına səmimi salamlarını çatdırıb: ”Biz Sizinlə keçən ay Azərbaycanda görüşmüşük. O səfərin çox böyük tarixi mənası var. Həm Bakıda, həm işğaldan azad edilmiş Qarabağ torpağında bizim görüşlərimiz Azərbaycan xalqını çox məmnun etdi. Sizin bizə verdiyiniz dəstək bizim üçün çox önəmlidir, çox dəyərlidir. Biz Sizinlə söhbətlər əsnasında hər zaman tarixi köklərimizə də nəzər yetirirdik. Bizi birləşdirən ortaq tarix, mədəniyyət, etnik köklər, dilimiz və dinimizdir. Türkmən və Azərbaycan xalqları, sözün əsl mənasında, qardaşdırlar və əsrlər boyu bu qardaşlıq hissləri ilə yaşamışlar. Bu gün müstəqil dövlətlər kimi böyük uğurlara imza atırlar. Mən artıq Sizə bildirdim ki, Avazanın inkişafı Sizin adınızla bağlıdır, Sizin əsərinizdir. Bu müasir, gözəl şəhər, əslində, Türkmənistanda gedən genişmiqyaslı inkişafı əks etdirir. Mən burada üç il bundan əvvəl Sizin dəvətinizlə olmuşam və artıq hava limanından şəhərə gələndə gördüm ki, daha böyük inkişaf var. Bütün bunlar Sizin fəaliyyətinizin nəticələridir.

Ardı Səh. 3

# Xəzərə açılan iki qapı!





**Əvvəli-Səh-2**

Qeyd etdiyiniz kimi, biz bir çox istiqamətlər üzrə uğurla əməkdaşlıq edirik. Mən əminəm ki, dediyiniz bütün sahələr - energetika, nəqliyyat, logistika, tranzit, rəqəmsallaşma, mədəni əlaqələr üzrə çox gözəl perspektivlər var. Sizin səfərinizdən sonra Hökumətlərarası Komissiyanın iclası olmuşdur. Orada bir çox məsələlər müzakirə edilib, gözəl nəticələr əldə olunub və biz bir neçə məsələni də bu gün burada müzakirə edəcəyik.

Eyni zamanda, nəqliyyat imkanlarına baxdıqda indi yeni potensial var - Şərq-Qərb nəqliyyat dəhlizi Türkmənistan və Azərbaycan ərazilərindən keçir. Əlbəttə ki, bizim bu sahədəki birgə fəaliyyətimiz, koordinasiyaya yönəlmiş addımlar böyük coğrafiyaya xeyir gətirəcək. Çünki bu gün Avropanı Uzaq Şərqlə birləşdirən etibarlı nəqliyyat bağlantısı bizim ölkələrimizin ərazisindən keçir. Mən bilirəm ki, Türkmənistanda çox böyük işlər görülüb - müasir dəniz limanı, hava limanları, dəmir yolları. Bütün bunlar Sizin rəhbərliyinizlə həyata keçirilən layihələrdir ki, Türkmənistanda ən müasir infrastruktur yaradılıb. Belə infrastrukturlar Azərbaycanda da yaradılıb. Ona görə bu istiqamətdə səylərimizin birləşməsində çox böyük fayda var. Əlbəttə, bizim tez-tez görüşməyimiz, hesab edirəm ki, bütün bölgəyə və dünyaya çox ciddi mesajlar verir. Türkmənistan və Azərbaycan - qardaş dövlətlər, qardaş xalqlar hər zaman bir-birinin yanındadır".

Görüşdə siyasi əlaqələrimizin mövcud durumundan məmnunluq ifadə olunub, Azərbaycanın və Türkmənistanın beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyi, qlobal və regional məsələlər üzrə mövqelərinin üst-üstə düşdüyü vurğulanıb. Xüsusilə BMT Baş Assambleyasında "Türkmənistanın daimi neytrallığı" adlı qəbul olunmuş qətnamədə Azərbaycanın həmmüəllif kimi çıxış etməsi Türkmənistana olan dəstəyin və dostluğun nümunəsi kimi qiymətləndirilib.

Dövlətimizin başçısı avqustda Türkmənistanda BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə konfransının uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb, bu tədbirdə Azərbaycanın yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunduğunu vurğulayıb. Türkmənistan Xalq Məsləhətinin sədri Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması və əldə olunan nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev qeyd edib ki, Şərq-Qərb marşrutunda Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan bölgəsini Ermənistan ərazisindən keçməklə birləşdirən yeni nəqliyyat dəhlizinin reallaşması ölkələrimizin nəqliyyat daşımalarını və tranzit potensialını daha da artıracaq və bütün regionun inkişafına öz töhfəsini verəcək. Söhbət zamanı Azərbaycan, Türkmənistan, Özbəkistan istiqamətində də nəqliyyat dəhlizinin imkanları məsələlərinə toxunulub. Bu xüsusda, keçiriləcək Azərbaycan-Türkmənistan-Özbəkistan formatında üçtərəfli görüşün əhəmiyyəti vurğulanıb, bu tədbirin üç qardaş ölkə arasında əməkdaşlığın və tərəfdaşlığın inkişafına əlavə təkan verəcəyinə ümidvarlıq ifadə olunub.



Avqustun 22-də Azərbaycan Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Türkmənbaşı şəhərində "Axaltəkə" atlarına və milli "Galkynysh" atlı qrupunun çıxışına baxıblar. Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və türkmən xalqının adından dövlətimizin başçısına "Taus" ləqəbli "Axaltəkə" atını hədiyyə edib.

## Qədim tarixə malik münasibətlər

Azərbaycan ilə Türkmənistan münasibətlərinin tarixi qədim tarixə malikdir. Belə ki, eyni kökə aid olan azərbaycanlılar və türkmənlər həm də eyni mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bundan başqa bu xalqları dil və din eyniliyi də birləşdirir. Orta Asiya xalqları içərisində milli mənsubiyyəti baxımından azərbaycanlılara ən yaxın olan xalqlardan biri məhz türkmənlər hesab olunur. Hər iki xalq türklərin oğuz boyundandır. Hər iki ölkə SSRİ-nin tərkibində müttəfiq respublika olublar. Elə həmin dövrdə də onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşıb. SSRİ dağıldıqdan, postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra bu münasibətlər daha da inkişaf etməyə başlayıb.

İki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin iyun ayının 9-da qurulub. 1999-cu il iyunun 8-də Türkmənistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. 2001-ci il iyunun 4-də Türkmənistan tərəfi maliyyə problemlərini əsas gətirərək Azərbaycandakı səfirliyinin fəaliyyətinə müvəqqəti xitam verib. 2008-ci ildə səfirlik yenidən öz fəaliyyətini bərpa edib. 2002-ci ilin avqustunda isə Azərbaycanın Aşqabadda səfirliyi fəaliyyətə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci ilin noyabrın 28-də Türkmənistana rəsmi səfərə gedib. Türkənistan Prezidenti Qurbanqulu Berdimühəmmədovla təkbətək görüşdə iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub, əlaqələrin daha da genişlənəcəyinə əminlik vurğulanıb. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Geniş tərkibdə keçirilən görüşdə isə prezident Qurbanqulu Berdimühəmmədov ölkəsinin Azərbaycanla münasibətlərinə böyük önəm verdiyini vurğulayıb. Türkmənistanın dövlət başçısı həmçinin bir çox sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edib.

Prezident Qurbanqulu Berdimühəmmədov tranzit boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması barədə Türkmənistanın beynəlxalq təşkilatlarda irəli sürdüyü təşəbbüsün Azərbaycan Prezidenti tərəfindən dəstəklənməsini yüksək qiymətləndirib. O, zəngin neft və qaz yataqları olan Azərbaycanın və Türkmənistanın regionda enerji siyasəti məsələlərinə eyni mövqedən yanaşdığını xüsusi vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyev isə Azərbaycan və Türkmənistan arasındakı münasibətlərin təkcə bu ölkələr üçün deyil, həm də bütün Mərkəzi Asiya, eləcə də Xəzər, Qafqaz regionu üçün böyük əhəmiyyəti olduğunu bildirib.

Geniş tərkibdə görüşdən sonra dövlət başçılarının iştirakı ilə Bakı və Türkmənbaşı limanları vasitəsilə beynəlxalq dəmir yolu - bərə xəttində yüklərin daşınmasının, yük vaqonlarının və konteynerlərinin istismarının, nömrələr üzrə qeydiyyatının və onlardan istifadəyə görə hesablaşmanın təşkili haqqında saziş, təhsil haqqında əməkdaşlıq haqqında saziş, hökumətlər arasında iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Türkmənistan hökumətlərarası komissiyası haqqında saziş və digər sənədlər imzalanıb.

## Yeni dövr, yeni çağırışlar

2025-ci il iyulun 16-da isə Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda səfərdə olub. Azərbaycan Prezidenti İlham Əliyev Qurbanqulu Berdiməhəmmədovla görüşündə çıxışı zamanı qeyd edib ki, Türkmənistan-Azərbaycan qardaşlıq əlaqələri inkişaf edir və bu əlaqələr daha da güclənir. İki ölkə bir çox sahələrdə uğurla əməkdaşlıq edir və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Görüşdə siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində əldə edilən bir çox nailiyyətlər barədə danışılıb, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycanla Türkmənistan möhkəm tarixi bünövrəyə, iki xalqın ortaqlığına və qohumluğuna, bir-birinə qarşılıqlı ehtiyacının olması anlayışına, xalqlarımızın və dövlətlərimizin rifahı, onların əmin-amanlığı və tərəqqisi naminə məcmu siyasi, iqtisadi, resurs potensialından istifadə etməyə hazırdırlar. İki ölkə bu gün xarici siyasətdə, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdir. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlığımız məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir. Bunun əsas, həlledici amili ölkələrimizin liderləri arasında əldə edilmiş ən yüksək səviyyədə qarşılıqlı anlaşma və etimaddır.

Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir. Ölkələrimiz dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir. İki qardaş ölkə böyük beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT-də, bir sıra regional strukturlarda uğurla və səmərəli əməkdaşlıq edir.

## Diqqət mərkəzində Transxəzərdir

Avropa İttifaqının 2027-ci ilin sonuna qədər Rusiya qazının idxalını tamamilə dayandırmaq niyyətində olması ilə əlaqədar olaraq, Brüssel Rusiya qazı üçün əvəzləyici tapmağa imkan verəcək bir neçə potensial mənbənin, o cümlədən Azərbaycan və dünyanın ən böyük təbii qaz ehtiyatlarına malik Türkmənistanın adını çəkir. Azərbaycan öz qazını Avropaya çatdırmaqda Türkmənistan üçün "qapı" olmağa hazırdır. Avropa İttifaqı addımlarını sinxronlaşdırmağa hazırdır, növbə Aşqabadındır. Türkmənistan yataqlarını Rusiyadan yan keçməklə Azərbaycan, Türkiyə və Avropa İttifaqı ilə birləşdirəcək Transxəzər qaz kəməri layihəsi də bu gün diqqət mərkəzindədir. Qaz layihələri ilə yanaşı, Orta Asiya, Cənubi Qafqaz və Türkiyədən keçən Avropa İttifaqı ilə Çin arasında strateji nəqliyyat marşrutu olan Orta Dəhliz adlandırılan layihəyə maraq artır. Əlverişli coğrafi mövqeyi və zəngin təbii sərvətləri ilə Türkmənistan regionun inkişaf etməkdə olan logistika və enerji arxitekturasında ən mühüm mövqe tutmağa çalışır.

*Ardı Səh. 4*

# Xəzərə açılan iki qapı!










Əvvəli-Səh-3

### Xəzərdə açar ölkə

Xəzər regionu ABŞ-ın diqqət mərkəzindədir. Amerikanın maraqlarını inkişaf etdirmək üçün əsas vasitələrdən biri yeni boru kəməri layihələridir. Onların tikintisi Vaşinqton tərəfindən uzunmüddətli maraqlar və Rusiyanın regionda siyasi və enerji təsirinin zəifləməsi ehtimalı kontekstində nəzərdən keçirilir. 2025-ci il may ayının sonunda ABŞ dövlət katibi Marko Rubio Türkmənistan qazını Avropa bazarına çatdırmaq üçün Türkmənistanı Azərbaycanla birləşdirməli olan transxəzər qaz kəmərinin tikintisi layihəsinə ABŞ administrasiyasının dəstəyini bir daha bəyan edib.

Karbohidrogen ehtiyatlarının hasilatı və Xəzər regionundan nəqli məsələləri ilə ABŞ-ın bütün administrasiyaları maraqlanıb. ABŞ Xəzər regionunda boru kəməri memarlığının inkişafına diqqəti artırıb. Vaşinqton Xəzəryanı dövlətlərin Qərb ölkələrinin maraqları sferasında iştirakını artırmalı olan yeni boru kəməri layihələrini irəli sürüb. Əsas səylər region ölkələrinin yaxın onilliklərdə hasil etməli olduqları Xəzərin karbohidrogen ehtiyatlarının gələcək axınının Rusiya ərazisindən keçməməsinə yönəlib. Bu səbəbdən potensial neft və qaz ehtiyatlarına malik, lakin əsas satış bazarlarından uzaqda yerləşən Qazaxıstan, Azərbaycan və Türkmənistan ABŞ-ın diqqət mərkəzində olub.

Amerika tərəfi bir sıra boru kəməri layihələrinin həyata keçirilməsinə nail olub. Bu, Azərbaycanın karbohidrogenlərinə aiddir və onların xarici bazara çıxışı təmin edilirdi. Ötən əsrin 90-cı illərində Azərbaycan neftinin və qazının gələcək həcmlərinin ixrac istiqamətlərinin seçilməsi məsələsində baş verən rəqabətdə Rusiya öz mövqelərini qoruya bilmədi. Nəticədə, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri Xəzər karbohidrogenlərinin Türkiyə bazarına, daha sonra isə "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsi ilə Avropa qaz bazarına çıxışı təmin etdi.

Bununla belə, ABŞ üçün Xəzər regionunda geosiyasi məkanı köklü şəkildə yenidən formatlaşdırmaq vacib idi. Bu məqsədlə Amerika tərəfi karbohidrogen ehtiyatlarının axın marşrutlarına və bununla yanaşı, regionda qüvvələr balansına əhəmiyyətli təsir göstərəcək boru kəmərləri çəkməyi planlaşdırırdı. Bu kontekstdə Qazaxıstan nefti və Türkmənistan qazının Azərbaycan üzərindən dünya bazarına çıxması üçün perspektivli marşrut kimi qiymətləndirilən transxəzər boru kəmərləri layihələri Vaşinqtonda xüsusi maraq doğurub. Təsadüfi deyil ki, 1990-cı illərdə energetika sahəsində genişlənən Azərbaycan-Qazaxıstan əməkdaşlığı ABŞ tərəfindən də dəstək alıb.

Amerika administrasiyasının istəkləri, eləcə də Qazaxıstan və Türkmənistanın planları Xəzərin dibi ilə boru kəmərlərinin çəkilməsinə qarşı çıxan Rusiya və İranın mövqeyi ilə ziddiyyət təşkil edirdi. Siyasi aspektlərlə, o cümlədən, Xəzərin ekologiyasına təhlükə ilə yanaşı, bir sıra məsələlər də həllini tapmamış qalır. Beləliklə, boru kəmərlərinin tikintisi üçün vəsait yox idi və Xəzər karbohidrogenlərinin gələcək həcmlərinin istehlakçıları təsdiqlənmədi. Buna baxmayaraq, ABŞ texniki və maliyyə çətinliklərinə baxmayaraq, transxəzər boru kəməri layihələrini israrla təşviq edirdi. Son onilliklər ərzində ABŞ-ın transxəzər boru kəmərləri məsələsində siyasəti dəyişməyib. Üstəlik, Rusiya ilə Qərbin qarşıdurması şəraitində siyasi və iqtisadi təzyiqlərə məruz qalan Xəzəryanı dövlətlərə Vaşinqton təzyiqləri artırıb.

### Transxəzər xəttinə hazırlıq

ABŞ-ın səyləri Aşqabad və Astanada da öz bəhrəsini verir. Bu yaxınlarda bu Xəzəryanı dövlətlər transxəzər qaz kəmərlərinin çəkilişində iştirak etməyə hazır olduqlarını bildiriblər. Ölkələr karbohidrogen ehtiyatlarının xarici bazara tədarükü marşrutlarının şaxələndirilməsi, Moskvadan asılılığın azaldılması zərurətini qeyd edirlər. Transxəzər boru kəmərlərinin tikintisi zərurətini dəstəkləmək üçün Türkmənistan və Qazaxıstan karbohidrogen ehtiyatlarının hasilatı ilə bağlı proqnozlar dərc edirlər. Sənədlərə və Xəzəryanı dövlətlərin nümayəndələrinin bəyanatlarına görə, yaxın gələcəkdə Xəzərdə neft və qaz hasilatı artmalıdır ki, bu da ixracın artmasına şərait yaradacaq. Bu cür ssenarilər çoxsaylı konfrans və görüşlərdə fəal müzakirə olunur və bununla da transxəzər marşrutlarına maraq saxlanılır. Transxəzər boru kəməri layihələrinin həyata keçirilməsi ABŞ tərəfindən Xəzər regionunda təsirin gücləndirilməsi, Rusiya və İranın rolunun azaldılması ilə bağlı vəzifələr kontekstində nəzərdən keçirilir.

Beləliklə, ABŞ-ın Xəzər regionunda siyasəti hələ də enerji axınlarının yenidən formatlaşdırılmasına, Rusiya və İranın geosiyasi təsirinin azaldılmasına yönəlib. Vaşinqton israrla Xəzərin açarları ilə əlaqələrini genişləndirir, Astana və Aşqabad arasında Moskva ilə əməkdaşlığın səviyyəsini azaltmağa ümid edir. Oxşar ssenari Xəzəryanı dövlətləri Rusiya ilə mövcud münasibətlərinə yenidən baxmağa vadar edən Amerika administrasiyası tərəfindən irəli sürülür. ABŞ Qazaxıstan və Türkmənistanın maraqlarından istifadə edərək, bu irimiqyaslı layihələrin həyata keçirilməsinə şərait yaratmağa çalışır.

Özbəkistan da Transxəzər marşrutuna qoşulur. 12 günlük Yaxın Şərq münaqişəsi Özbəkistanın Hörmüz boğazından keçən əsas logistika marşrutlarını təhlükə altına qoyub. Buna cavab olaraq, Daşkənd öz xarici ticarət strategiyasını aktiv şəkildə yenidən nəzərdən keçirir, yük axınını alternativ istiqamətlərə yönəldir. Əsas diqqət Çin, Xəzər dənizi və Gürcüstan limanlarını birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (TİTR), həmçinin Şimal-Cənub yoluna yönəlib. Bundan əlavə, Rusiyadan keçən ənənəvi şimal marşrutları artan sanksiyalara baxmayaraq, fəaliyyətini davam etdirir.

Azərbaycan və Türkmənistan arasında mövcud olan münasibətlər tarixi, mədəni və etnik bağlılıqlara əsaslanaraq strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. İki ölkə arasında yaranmış indiki əlaqələri təkcə iqtisadi və əməkdaşlıq məsələlərinin deyil, eyni zamanda mədəni, humanitar, elmi və intellektual istiqamətlərin də müzakirə olunduğu çoxtərəfli bir dialoq platforması kimi qiymətləndirilə bilər. Azərbaycan və Türkmənistan xalqları ortaq milli, etnik və dini dəyərlərə malik olmaqla yanaşı, ortaq mədəni və ədəbi miras da bölüşürlər. Bu baxımdan Prezident İlham Əliyev Türkmənistana səfəri mühüm məqamlardan biridir. Nəticə etibarilə, bu səfər Azərbaycan–Türkmənistan münasibətlərində yeni mərhələnin davamı olacaq. Onun uzunmüddətli siyasi, mədəni və iqtisadi nəticələri gələcəkdə daha aydın şəkildə müşahidə ediləcək və regional əməkdaşlığa töhfə verəcək.

**V.VƏLİYEV**

# Gürcüstan hədələnir




Avropa Şurasından çıxarıla bilər



**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) üzvləri Gürcüstan nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasını təklif ediblər. Hətta hökumətin "avtoritarlığına görə" respublikanı Avropa Şurasından çıxarmaq niyyəti ortadadır. Ölkənin baş naziri İrakli Kobaxidze vəziyyəti absurd adlandırıb, çünki Tbilisi hələ yanvar ayında Assambleyaya üzvlüyünü dayandırıb. Gürcüstanla Qərb ölkələri arasında münaqişə getdikcə pisləşir.**

Xatırladaq ki, Avropa Şurasından (AŞ) çıxarılma ilk növbədə Gürcüstanın Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) yurisdiksiyasından çıxmasına gətirib çıxaracaq. Müvafiq olaraq, gürcülər daha ora apellyasiya şikayəti verə bilməyəcək və "Gürcü arzusu" Avropa Məhkəməsinin qərarlarını icra etmək zərurətindən xilas olacaq. Bundan əlavə, 2024-cü ilin yanvarında Azərbaycan hakimiyyəti bu qurumun Bakıya münasibətinə yenidən baxmasa, Avropa Şurasını tərk edəcəyi ilə hədələyib. Hətta bundan əvvəl, 2022-ci il martın 15-də Rusiya NATO və Aİ-ni bu qurumu anti-Rusiya alətinə çevirməkdə ittiham edərək Avropa Şurasını tərk edib.

AŞPA-dakı vəziyyətə baxmayaraq, Kobaxidze əmin edir ki, onun hökumətinin xarici siyasətinin prioritetləri Avropa İttifaqı ilə inteqrasiya və strateji tərəfdaş kimi ABŞ-la əlaqələrin inkişafı olaraq qalır. Onun sözlərinə görə, onlarla münasibətlərdə indiki çətinliklər müvəqqətidir və Tbilisi bunlara görə məsuliyyət daşımır. Kobaxidze hesab edir ki, böhran Qərbdə iddia edildiyi kimi "Gürcü Arzusu"nun avtoritar idarəetmə üsulları ilə deyil, tərəfdaşların "demokratik reqressiyası" ilə bağlıdır.

Xüsusilə, baş nazirin sözlərinə görə, Brüssel Gürcüstan hakimiyyəti ilə "sağlam müzakirədən" yayınır. "Bu gün Aİ-də tendensiyalar - demokratiya, insan haqları və iqtisadiyyatda həyəcanvericidir. Təəssüf ki, bütün sahələrdə reqressiya var. Ümid edirik ki, 2030-cu ilə qədər biz Aİ-yə üzv olmağa hazır olduğumuz zaman bu tendensiyalar dəyişəcək və bütün Aİ-də demokratik sistem bərpa olunacaq. İnsan haqları daha yaxşı qorunacaq və iqtisadiyyat gücləndiriləcək".

Eyni zamanda, o qeyd edib ki, Gürcüstanın Aİ ilə münasibətləri 2022-ci ildə, Gürcüstan hakimiyyəti Rusiya ilə hərbi qarşıdurmadan imtina edəndə pisləşib. "Bizim istəyimiz Aİ-yə daxil olmaqdır, lakin hər şey göstərir ki, bir ölkə üçün sülhün əsas təminatı onun öz müstəqilliyi və suverenliyidir, hamı bunu yaxşı xatırlamalıdır", - Kobaxidze bildirib.

O, həmçinin hesab edir ki, Aİ ölkələri suverenlik çatışmazlığından əziyyət çəkir, çünki Avropa bürokratiyası kifayət qədər güclü olmadığını sübut edib. "Avropa bürokratiyası xarici təsir altındadır. Buna görə də onun obyektiv maraqlara əsaslanan qərarlar qəbul etməsi çətindir. Suverenliyin olmaması isə əsas problemdir. Avropa İttifaqında hələ də öz müstəqilliyini və suverenliyini qətiyyətlə müdafiə edən bir neçə dövlət qalıb", - Gürcüstan hökumətinin başçısı yekunlaşdırıb.

Kobaxidze Aİ ölkələrinin konkret olaraq kimdən asılı olduğunu izah etməyib. Adətən belə hallarda Aİ-ni tənqid edənlər Avropa ölkələrini öz maraqları çərçivəsində manipulyasiya edən Vaşinqtonu nəzərdə tutur. Lakin Kobaxidzenin bununla bağlı heç bir şikayəti yoxdur. Əksinə, Tbilisi ABŞ prezidenti Donald Trampın və onun administrasiyasının "sağlam münasibətinə" ümid bəsləyir. "Biz konkret yol xəritəsi ilə strateji tərəfdaşlığı bərpa etmək istəyirik... Ümid edirik ki, sağlam münasibət olacaq, strateji tərəfdaşlıq sağlam şəkildə bərpa olunacaq, bu, bizim istəyimizdir, Amerika tərəfini gözləyirik", - Kobaxidze bildirib.

Lakin münasibətlərin bərpasından danışmaq hələ tezdir. Beləliklə, Birləşmiş Ştatlar tarixdə ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurası üzvlərinin 2008-ci il müharibəsi ilə bağlı birgə bəyanatına qoşulmadı. Sənədi yalnız Aİ ölkələri və Böyük Britaniya imzalayıb.

Nə olursa olsun, rəsmi Tbilisi Avropa demokratiyasının problemlərini müzakirə edərkən, müxalifət mediası "Gürcü arzusu"nun nümayəndələri ilə onların əleyhdarları arasında qanqster çəkişmələrindən xəbər verir. Belə ki, Gürcüstanın Duşeti şəhərindən (əhali 7,2 min nəfər) hakim partiyadan merliyə namizəd Kaxaber Çitaurinin rəqibi Qoqita Taniaşvilini yerli qəbiristanlığa aparması xəbəri gəlib. Çitauri Taniaşvilinin seçkilərdən geri çəkilməsini tələb edib və o, imtina etdikdə onu döyüblər.

Rusiya hökuməti yanında Maliyyə Universitetinin eksperti Şota Apxaidze deyib ki, "Gürcü arzusu" respublikanın Konstitusiyasına və ya onun demokratik əqidəsinə görə deyil, maliyyə səbəblərinə görə Avropa İttifaqına daxil olmağa çalışır. "Aİ Tbilisiyə çoxlu pul verə bilər, ona görə də hökumət onunla münasibətlər qurmaqda maraqlıdır. Brüssel qəzəbini mərhəmətə çevirən kimi Kobaxidze öz ittihamlarını unudacaq. Bundan əlavə, son 30 ildə insanlar Avropaya inteqrasiyaya hazırlaşıblar və indi çoxları itkidədir. Gənclər baş verən hər şeyi Avropada antiavropa imici yaratmamaq üçün hesab edirlər ", - Apkhaide hesab edir.

Öz növbəsində, politoloq Gia Xuxaşvili hesab edir ki, Gürcüstan hakimiyyəti şifahi şəkildə Aİ-yə daxil olmağa can atsa da, praktiki olaraq onunla münaqişəni qəsdən gərginləşdirir, onu getdikcə daha çox təhqir edir. "Bu baxımdan respublikanın Avropa Şurasından çıxarılması və onun Avropa İttifaqı ilə vizasız rejimdən məhrum edilməsi kifayət qədər real perspektivlərdir. Amma bu, "Gürcü arzusunu" qətiyyən narahat etmir, çünki o, öz rejimini gücləndirməyə çalışır, hakimiyyəti heç kimlə bölüşmür", - Xuxaşvili deyib.

**V.VƏLİYEV**



## Avtomobillərlə aparılan müharibə

Elçin Bayramlı

***Avtomobil yollarında ağır qəzalar, faciələr son vaxtlar daha tez-tez baş verir. Bunun səbəbləri haqda çox yazılıb, çox danışılıb, lakin hələ də bu problemin həlli ilə bağlı ciddi irəliləyiş əldə olunmayıb. Burada çox sayda səbəblər var- yol infrastrukturunun bəzi yerlərdə təhlükəli olması, sürücünün yorğunluğu, avtomaşınların texniki vəziyyətinin yaxşı olmaması, sürücülərin qeyri-peşəkarlığı, yolverilən sürət həddinin keçilməsi və s.***

Bu səbəblər arasında, məncə, ən əsası sürət həddinin aşılmasıdır. Xüsusən də, şəhərlərarası avtobusların çoxu yolverilən sürət həddini xeyli dərəcədə keçir. Məqsəd məsafəni daha tez qət etmək və qısa vaxtda daha çox gəlir əldə etməkdir. Nəinki mikroavtobusda, hətta iri avtobusların da 110-la getdiyim yolda yanımdan güllə kimi şütüyüb keçməsinin şahidi olmuşam. Halbuki, avtobusların 90 km/saat-dan artıq sürətlə getməsi qadağandır.

Ən dəhşətlisi orasıdır ki, bu avtobusun sürücüsünə sərnişinlərdən heç kim irad bildirmir, normal sürətlə sürməsini tələb etmir. Çünki onlar da mənzilbaşına mümkün qədər daha tez çatmağa çalışırlar. Burada sürücü və sərnişinlər arasında yazılmamış qanun, gizli razılaşma var sanki. Bax bu sürətli həyat tərzi əksər faciələrin səbəbkarıdır.

21-ci əsrdə "sürət əsri" demək, avtomobili yolverilən həddən yüksək sürətlə idarə etmək deyil. Bəziləri bu ifadəni səhv başa düşüblər və bu səhv də onlara həyatları bahasına başa gəlir. Həm də təkcə özlərinin yox, günahsız başqalarının da...

Mikroavtobuslarda isə vəziyyət daha təhlükəlidir. Bu maşınlar magistrallarda 150 km/saat-dan yuxarı sürətlə gedirlər. Bəzən isə 180-200 km/saat sürətlə. Halbuki, bu yolların infrastrukturu 120 km/saatdan yuxarı sürət üçün uyğun deyil və bu, aşkar qəza deməkdir.

Problemlərdən biri yük maşınlarının sürücüləri ilə bağlıdır. Onlar da əksər yol hərəkəti qaydalarına riayət etmir, yüksək sürətlə sürürlər. Çünki işlədikləri şirkət qarşılarına daha tez və daha çox işləmək tapşırığı qoyur, bəzən sutkada 15-16 saat sükan arxasında olurlar. Üstəlik, bu maşınlar əksər hallarda icazəverilən normadan 2-3 dəfə artıq yüklənir ki, bu da potensial ölüm maşını deməkdir. Onsuz da bu avtomaşınların əksəriyyətinin texniki vəziyyəti yaxşı deyil.

Sürücülərin yorğunluğu da qəzaların səbəbləri arasındadır. Ekspertlərin rəyinə görə, uzun yola çıxanda göz və beyin yorulur və sürücünü yuxu tutduğuna, ən azı beyin reaksiyaların ciddi şəkildə azalmasına görə, hər iki saatdan bir dayanıb istirahət etməlidir. Sürücülərin çoxu buna fikir vermir. 6-7 saatlıq yolda maksimum bir dəfə dayanırlar- o da, məcburən- yemək üçün.

Daha bir səbəb isə qeyd etdiyimiz kimi, yol infrastrukturu ilə bağlıdır. Düzdür, son dövrlərdə ölkəmizin əksər avtomobil yolları yenidən qurulub və standartlara cavab verir, lakin hələ də təhlükəli yollar var.

Problem əlbəttə təkcə sürücülərlə bağlı deyil, bəzi araşdırmalara görə piyadaların ölümü ilə nəticələnən qəzalarda onların payı 40 faizdən çoxdur. Bir çox piyadalar harda gəldi yolu keçir, gecə vaxtı qara paltarda özünü yolun ortasına atır və s. Maraqlısı odur ki, bir çox hallarda piyadalar məhz yeraltı və ya yerüstü keçidlər olan yerdə yolu keçirlər ki, bu da bəzən ölümlə nəticələnir. Lakin etiraf etməliyik ki, bəzi yollarda uzun məsafədə piyada keçidi yoxdur deyə, piyadalar harda gəldi yolu keçməyə məcbur olurlar. Bu səbəblərdən, ölkəmiz avtoqəzaların, qəzalarda ölümlərin sayına görə dünyada öncül yerlərdədir. Bütün bu səbəblər aradan qalxmayınca, belə faciələrin də ardı-arası kəsilməyəcək.

# Kəlbəcər yenidən qurulur və inkişaf edir



*Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Kəlbəcər regionun ən gözəl, müasir rayonuna çevrilir*

İşğaldan azad edilən ərazilərdə geniş miqyaslı quruculuq, abadlıq, təmir tikinti işləri həyata keçirilir. İnsanlar yenidən qurulan doğma yurdlarına qayıdırlar. İndiyədək işğaldan azad olunmuş ərazilərdə 8517 nəfərin (2228 ailə) daimi məskunlaşması təmin edilib. 2022-ci ilin 19 iyul tarixindən başlayan köç karvanı ilk dəfə Zəngilan rayonunun Ağalı kəndinə yola düşüb. İlk köç karvanı 53 nəfərdən (10 ailə) ibarət olub və onlar müharibənin bitməsindən cəmi 1 il 8 ay sonra (616 gün) öz doğma torpaqlarına yenidən daimi yaşamaq üçün qayıdıblar. Azad olunmuş ərazilərdə tikinti və yenidənqurma işlərinin sürətlə davam etməsinin nəticəsidir ki, 2024-cü ilin III rübündə daha 755 nəfər (231 ailə) öz doğma torpaqlarına geri qayıdıb. Qarabağımızın incisi, Türk dünyasının “mədəniyyət paytaxtı” olan Şuşa şəhərinə 2024-cü ilin 9 may tarixində 88 şuşalının (20 ailənin) köçürülməsi təmin edilib.

Hazırda Şuşada 204 ailə və ya 763 nəfər məskunlaşıb. 2025-ci ilin 6 ayı ərazində işğaldan azad edilən ərazilərə ümumilikdə 43 minə yaxın insan köçürülüb və əhalinin məskunlaşması davam edir. Qısa müddət ərzində Şuşa, Füzuli, Laçın, Xocalı şəhərlərinin, Zəngilanın Ağalı, Laçının Zabux və Sus, Tərtərin Talış kəndlərinin sakinləri öz doğma evlərinə qayıdıblar. Əminliklə demək olar ki, çox qısa müddətdə əhali öz doğma yurdlarında məskunlaşacaqlar. Bununla da Azərbaycan Qarabağı işğaldan azad etməklə qələbə zəfəri yazdığı kimi quruculuq və abadlıq, təmir, tikinti işlərini uğurla həyata keçirməklə yeni bir tarix yazacaq. Təbii ki, bu möhtəşəm tarixin əsas müəllifi Fateh Sərkərdə, Prezidentimiz İlham Əliyevdir. Məhz Onun tapşırığı əsasında işğaldan azad edilən ərazilərdə yeni-yeni uğurlu layihələr icra olunur. Bu layihələrin gedişi ilə mütəmadi tanış olan Prezident İlham Əliyev onların açılışlarında da iştirak edir. Kəlbəcərdə bir sıra obyektlərin açılışında iştirak edən Prezidentimiz İlham Əliyev həm də doğma yurd-yuvalarına qayıdan kəlbəcərlilərlə görüşərək, onlarla səmimi söhbətlər etmiş, fotolara çəkdirmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaşıl enerji zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu tapşırıqlara uyğun olaraq Kəlbəcər rayonunda 8,6 meqavatlıq “Aşağı Vəng” və 8,8 meqavatlıq “Nadirxanlı” kiçik su elektrik stansiyaları tikilib. Bu stansiyaları su ilə təmin etmək üçün Lev çayının Tərtər çayına qovuşmasından sonra baş suqəbuledici, eyni zamanda, Tutqu çayının Tərtər çayına qovuşan hissəsində ikinci suqəbuledici yaradılıb. Kaskad su elektrik stansiyaları silsiləsinə daxil olan bu stansiyalar üçün çətin relyefdə ümumilikdə 9300 metr uzunluğunda derivasiya borusu çəkilib. Çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğularla təchiz olunan suqəbuledicilərdə bütün ekoloji normalara riayət edilib. Hər iki stansiyada quraşdırılmış hidroaqreqatlar zərərli maddələrin suya qarışmasının qarşısını almaqla yanaşı, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən suyu aşağı axarda yenidən çaya qaytarır. Müasir avadanlıqlarla təchiz edilmiş stansiyalar ölkə enerji sisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya olunub. Burada istehsal edilən ekoloji təmiz yaşıl enerji ilə təxminən 25 min nəfər elektrik enerjisi ilə təmin olunacaq.“Aşağı Vəng” və “Nadirxanlı” stansiyalarında il ərzində 48 milyon kilovat-saat elektrik enerjisinin istehsal edilməsi nəzərdə tutulur. Qənaət edilən təbii qazın həcmi 12,5 milyon kubmetr təşkil edəcək ki, bununla da il ərzində 23 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Kəlbəcər rayonunun 8 nəfər sakini stansiyalarda işlə təmin olunub. “Çaykənd” kiçik su elektrik stansiyasının isə gücü 5 MVt-dır. Bu, “AzərEnerji” tərəfindən Kəlbəcərdə istismara verilən sayca on birinci yaşıl enerji obyektidir. Stansiya ölkənin ən böyük bolsulu çaylarından birinin - Tərtər çayının üzərində yeni yaradılmış baş suqəbuledicidən 8 min 500 metrlik derivasiya borusu ilə gələn su ilə təchiz olunur. Təxminən 7 min nəfəri ekoloji təmiz yaşıl enerji ilə təmin edəcək stansiyada “ətraf mühitə dost texnologiyalar” tətbiq ediləcək.






Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Kəlbəcər rayonunda yerləşən “Aşağı Vəng”, “Nadirxanlı” və “Çaykənd” kiçik su elektrik stansiyalarının açılışı edilib. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlətimizin başçısı bu yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib.

Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər. Görüşdə Prezidentimiz İlham Əliyev bildirib ki, bu gün tarixi bir gündür, doğma Vətənə, doğma şəhərə 32 ildən sonra qayıdırsınız və bu münasibətlə sizi ürəkdən təbrik edirəm: “Biz ədaləti bərpa etdik, haqqımızı bərpa etdik və bugünkü tədbir bir daha onu göstərir ki, Azərbaycan xalqı iradəli xalqdır. Azərbaycan xalqı öz doğma torpağına bağlıdır və bütün çətinliklərə baxmayaraq, işğal dövründə biz nəinki inamımızı itirməmişik, hər birimiz - bütün xalq hər gün bu müqəddəs günü yaxınlaşdırırdı”.

### Kəlbəcər şəhəri indi dünyanın ən gözəl şəhərlərindəndir

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə onu da bildirib ki, dövlət sizin üçün burada gözəl şərait yaradıb : “Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə “Böyük Qayıdış” Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq. Təbii ki, lazım olan bütün digər infrastruktur layihələri də icra edilibdir. İşıq, su, təbii qaz çəkilib, yollar salınıb, minalardan təmizləmə işi aparılıb. İndi Kəlbəcər şəhərində gözəl məktəb tikilir və gələn il istifadəyə veriləcək. Ancaq builki dərs ilini kəlbəcərli uşaqlar modul tipli məktəbdə oxuyacaqlar.Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər ərzində ağır şəraitdə - çadırlarda, uyğunlaşdırılmış binalarda, uşaq bağçalarında, yataqxanalarda - müxtəlif yerlərdə yaşamısınız, həyatınız çox ağır olub”.

### “Bundan sonra müzəffər xalq və müzəffər, qalib dövlət kimi yaşayacağıq”

“Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün” deyən Prezident İlham Əliyev bildirib ki, hər halda son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır. İndi dünyada gedən prosesləri görürsünüz. Müxtəlif yerlərdə toqquşmalar, müharibələr, hərbi cinayətlər baş alıb gedir. Amma heç kim tam qələbə qazanmayıb. Müharibələr davam edir, daha böyük coğrafiyanı əhatə edir və yəqin ki, davam edəcək. Yəni, bax, bu siyasi məsələlərin inkişafı bunu göstərir. Tək yeganə ölkə bizik. Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq. Düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdik və eyni zamanda, sülhün təminatçısı da Azərbaycandır: “Biz düşməndən qisasımızı döyüş meydanında aldıq. Biz bir daha xalqımızın böyüklüyünü göstərdik. Onların bizə etdiklərini biz onlara etmədik. Halbuki onların etdikləri heç vaxt yaddaşımızdan silinməyəcək. O cümlədən kəlbəcərlilərə qarşı edilən hərbi cinayətlər, soyqırımı, Xocalı soyqırımı, digər bölgələrdən olan vətəndaşlarımıza qarşı düşmənçilik, ədavət və vəhşilik heç vaxt yaddaşımızdan silinməyəcək və silinməməlidir. Bunu mən həm müharibəni qazanan ölkənin Ali Baş Komandanı kimi və bu gün Ermənistanla, məğlub edilmiş Ermənistanla sülh prosesinin iştirakçısı kimi deyirəm. Biz istəmirik ki, müharibə olsun. Biz sülh istəyirik. Ancaq heç vaxt o qanlı tarix yaddaşımızdan silinməməlidir, heç vaxt şirin sözlərə aldanmamalıyıq, ayıq olmalıyıq. Təbii ki, bizim Silahlı Qüvvələrimiz hər an, hər gün dövlətimizin maraqlarının, təhlükəsizliyin keşiyindədir. Biz mümkün olan təhlükə mənbələrini izləyirik, görürük və görəcəyik. Biz hərbi gücümüzü artırırıq. İkinci Qarabağ müharibəsindən sonra həm Xəzər dənizindəki, həm də bütün digər silahlı qüvvələrimizin inkişafı ilə əlaqədar minlərlə, - sayını demək istəmirəm, amma böyük sayda, - xüsusi təyinatlı qüvvələrimizin say tərkibini artırmışıq, yeni komando qüvvələri yaradılıb. Bu gün bu gözəl binaların ətrafında bizim görüşümüz də çox böyük rəmzi məna daşıyır. Onlar buranı dağıdıblar, biz isə qurub-yaratmışıq və sizi bu münasibətlə bir daha təbrik edirəm. Rahat yaşayın, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun”.

Görüş iştirakçıları ilə Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva arasında səmimi söhbətlər edilib, fotolar çəkdirilib. Çıxış edən kəlbəcərlilər Prezident İlham Əliyevə onlara göstərdiyi diqqət və qayğıya görə, öz təşəkkürlərini çatdırıb, minnətdarlıqlarını bildirmişlər.

**İLHAM ƏLİYEV**




# Qarabağ iqtisadiyyatının onurğası: FÜZULİ





***Qarabağ işğalda olduğu müddətdə Azərbaycan iqtisadiyyatından əhəmiyyətli pay da işğal edilmiş sayılırdı. Çünki Qarabağın təbii ehtiyatlarla zəngin torpağı ölkəmizin iqtisadi gəlirlərində əhəmiyyətli paya malik idi. Belə ki, Dağlıq Qarabağda 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin su və 11 mineral su yatağı var. Bundan əlavə Qarabağ nadir bitki örtüyü ilə də dünyada məşhur olan bir ərazi olub.***




## Ən qədim yaşayış məskəni

1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilən Füzuli rayonu 29 il ara ilə iki dəfə işğaldan azad edilib. 1994-cü il Horadiz əməliyyatı zamanı rayonun bir hissəsi işğaldan azad edildikdən sonra 2020-ci il 17 oktyabr tarixində Füzuli rayonu işğaldan tam azad olunub. Füzuli rayonunun əhalisi Qarabağ müharibəsində ölkəmizdən ən çox itkin və şəhid verən rayondur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var.

Füzuli Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun əsası 1930-cu ildə qoyulub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişdirilərək Füzuli adlandırılıb.

Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılıb, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilib. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal-Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycanın arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu sübut etdi.

## Vandallar tarixi silməyə çalışıblar

Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiqguru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələrimiz ermənilərin vəhşi vandalizminə məruz qalıb, məhv edilib.

Füzuli rayonunun çoxşaxəli aqrar potensialı var. İşğal nəticəsində rayonun sərvətləri düşmən tərəfindən talan edilib, kənd yerlərində təsərrüfatla məşğul olan əhali məcburi köçkün vəziyyətində ölkənin digər və şəhər rayonlarında məskunlaşmağa məcbur qalıb, yaşayış binaları, ümumi infrastruktur, o cümlədən kənd təsərrüfatı istehsalı üçün zəruri infrastruktur obyektləri darmadağın edilib. 27 il davam edən işğal rayona təxminən 7 milyard ABŞ dolları civarında maddi zərər vurub.

## Füzuli rayonu bölgə iqtisadiyyatının onurğasıdır

Aqrar rayon olan Füzulidə iqtisadiyyatın əsas sahəsini kənd təsərrüfatı təşkil edir. Rayonda mühüm ərzaq məhsulu olan taxılçılığın inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimizin kifayət qədər böyük iqtisadi potensialı var. Onların arasında Füzuli rayonu iqtisadi potensialına görə seçilən rayonlardan biridir.

Füzuli ötən əsrin 80-ci illərində pambıq, daha sonra üzüm və taxıl istehsalına görə respublikada aparıcı rayonlardan biri olub. 150 min əhalisi olan Füzulinin torpaqları əsasən məhsuldar torpaqlar hesab olunduğuna görə kənd təsərrüfatının inkişafı imkanları kifayət qədər böyükdür. Burada təkcə əkinçilik deyil, eyni zamanda heyvandarlığın inkişafı imkanları da var. Füzuli rayonu və eləcə də Füzuli şəhərinin işğaldan azad edilməsi imkan verəcək ki, qısa zamanda rayonun iqtisadiyyatı bərpa edilsin və respublika iqtisadiyyatına xüsusi töhfə verəcək rayon olsun.

Rayonda bir sıra təbii ehtiyatlar, o cümlədən inşaat materiallarının istehsalı üçün xammal bazası da mövcuddur. Bu da imkan verəcək ki, bölgədə sənayenin formalaşması, sənaye müəssisələrinin yaradılmasını daha rahat həyata keçirmək mümkün olsun. Füzuli rayonu turizm potensialına da malikdir. Xüsusən Dağlıq Qarabağa yaxın olan kəndlərinin təbiəti imkan verir ki, daxili turizm üçün yeni imkanlar yaransın.

Naxçıvan kooridorinu birləşdirəcək dəmiryolu Füzuli rayonundan keçəcək. Nəticədə işğaldan azad olunmuş ərazilərimizin nəqliyyat HAB-ı olaraq bu imkanlardan iqtisadi baxımdan daha çox faydalanmasına imkan verəcək. Bu da orada istehsal olunan məhsulların digər rayonların bazarına çıxarılması baxımdan çox vacibdir. Bütövlükdə Füzuli rayonu öz potensialı ilə qısa zamanda respiblikanın iqtisadi baxımdan inkişaf etmiş aparıcı rayonların birinə çevrilmək imkanlarına malikdir.

## Heyvandarlıq və əkinçilik üçün münbit şərait

Rayonun mövcud torpaq örtüyündə əsasən boz və çəmən-boz, şabalıdı və açıq-şabalıdı, dağ-şabalıdı, dağ boz-qəhvəyi torpaq tipləri yayılıb. Yuxarı Qarabağ iqtisadi rayonunda ən çox suvarılan torpaqlar Ağdamdan sonra Füzuli rayonundadır. Rayonun ərazisi əsasən Araz, Köndələnçay, Şapartı, Quruçay və Qozluçay çayları ilə suvarılır. Suqovuşan, Xudafərin və Sərsəng su anbarlarının Füzulinin əkin torpaqlarının suvarılması üçün istifadə edilməsi nəticəsində rayonun kənd təsərrüfatının inkişafına çox yüksək töhfə verməsi gözlənilir.

Füzuli rayonunda 25.5 min ha. örüş-otlaq və biçənək sahəsi var və əhalinin maldarlıq sahəsində olan təsərrüfatçılıq ənənələri olduqca qədimdir. Rayonda heyvandarlıq sektoru ilə bağlı aqrar potensial yüksək olub. Rayonun örüş-otlaq və biçənək sahələri respublikanın müvafiq sahələrinin təxminən 1,1 faizini təşkil edir. Ərazisində hakim olan iqlimin və bol sulu çaylarının verdiyi imkanlara görə rayon sakinləri həm bir illik əkmələr, həm də çoxillik əkmələri rahat becərə bilirdilər. Füzuli rayonunda sovetlər dönəmində əkinçiliyin əsas sahələri olan taxılçılıq, pambıqçılıq, şəkər çuğunduru, üzümçülük və tərəvəzçilik inkişaf etdirilmişdi. Rayon ərazisində taxıl zəmiləri, pambıq tarlaları, üzümlüklər, meyvə bağları geniş sahələri əhatə edirdi. Heyvandarlıq sahəsində isə baramaçılıq xüsusilə fərqlənirdi.

27 illik işğaldan azad edildikdən sonra Füzuli rayonda geniş quruculuq işləri aparılır, yeni məktəblər, xəstəxanalar, binalar tikilir, iqtisadi imkanlar genişləndirilir. Rayona vurulan maddi və mənəvi zərər nəhəngdir, lakin əminik ki dövlətimiz bu işin öhdəsindən gələcək və yaxın illərdə Füzuli rayonu yenidən öz iqtisadiyyatını, mədəniyyətini dirçəldəcək.

***Lalə Mehralı***

ARAŞDIRMA

# Turistlər üçün ən əlverişli bölgələr - qiymətlər necədir?





*Son illərdə Azərbaycanda turizm sahəsi sürətlə inkişaf edir. Ölkəmizin həm təbii gözəllikləri, həm də müasir turizm infrastrukturunun genişlənməsi yerli və xarici turistlərin marağını artırır. Xüsusilə şimal və şimal-qərb bölgələri – Quba, Qusar, Qəbələ, Şəki – əcnəbi turistlərin ən çox üz tutduğu istiqamətlərdən hesab olunur. Bu ərazilərin Böyük Qafqaz dağlarının ətəyində yerləşməsi, füsunkar təbiəti və zəngin mədəni irsi turistlər üçün əsas cazibə mənbəyidir.*

## Bölgələr üzrə qiymətlər və imkanlar

Ucuz qiymət axtaranlar adətən 2-3 ulduzlu otellərə üz tutur. Qiymət aralığı isə otelin yerləşdiyi bölgəyə və təqdim etdiyi xidmət səviyyəsinə görə dəyişir.

## Bakı – paytaxt şəhər

Turistlərin ən çox müraciət etdiyi ünvan Bakıdır. Burada qiymətlər belədir: 4-5 ulduzlu otellərdə bir gecəlik qonaqlama 120–300 manat aralığında dəyişir. Fərdi kirayə verilən günlük evlərin qiyməti isə daha çevikdir: bağ evləri əsasən 130–200 manat arası, mərkəzə yaxın mənzillər isə 50–180 manat arasında olur.

## Qəbələ – bahalı istirahət mərkəzi

Qəbələ Azərbaycanda istirahət üçün ən bahalı məkanlardan hesab olunur. Bir nəfər üçün bir gecəlik oteldə qalmaq 200–250 manat arası dəyişir. Fərdi şəkildə kirayə verilən evlərin bir günlük qiyməti isə 150 manatdan başlayır.

## Şəki – tarixi və mədəniyyətin ünvanı

Şəki də turistlər üçün cəlbedici bölgələrdən biridir. Qiymətlər Qəbələdən çox da fərqlənmir. Mərkəzə yaxın ərazilərdə qiymətlər daha da yüksəlir. Fərdi evlər mövsüm zamanı 250–300 manat arası dəyişir, otellərdə isə bir gecəlik qonaqlama 55–150 manat arasında olur.

Mövzu ilə bağlı turizm eksperti Cəfər Qarayev fikirlərində bildirib ki,hər büdcəyə uyğun məkanlar mövcuddur: "İstəyənlər 5 ulduzlu mehmanxanalarda – daha bahalı və yüksək xidmət göstərilən yerlərdə qalır. Orta büdcəli turistlər isə 4 ulduzlu otellərə üz tuturlar. Məncə, əcnəbi turistlər 3 və daha aşağı ulduzlu otellərə getmirlər. Şimal zonasına gələnlərin ziyarət etdikləri əsas məkanlardan biri "Şahdağ Qış-Yay Turizm Kompleksi"dir. Bu kompleks bölgənin birmənalı şəkildə turizm istiqaməti kimi tanınmasına böyük töhfə verir. Şimal zonasına üz tutan turistlər, demək olar ki, ən az bir günlərini burada keçirirlər.

Qəbələdə Beynəlxalq Hava Limanının olması birbaşa uçuşların həyata keçirilməsinə imkan yaradır. Bundan əlavə, "Tufandağ Qış-Yay Turizm Kompleksi" də turistlərin çoxalmasına səbəb olur. Uşaq əyləncə mərkəzləri, atıcılıq məkanları, attraksionlar, kanat yolları, "Nohur göl", "Yeddi Gözəl" şəlaləsi və digər məkanlar da turistlərin marağını cəlb edən əsas nüanslardandır.



Ümumiyyətlə, xarici turistlər demək olar ki, şəxsi evlərdə qalmırlar. Çox az faiz bu variantı seçir. Adətən otellərdə yer olmadıqda şəxsi villalara və son zamanlar məşhurlaşan A-frame tipli evlərə üz tuturlar. Amma bu evlərdə mehmanxana xidmətləri olmadığı üçün müəyyən narazılıqlar yaranır (təmizlik xidməti, səhər yeməyi və s.). Deyərdim ki, mehmanxanaların sayında çatışmazlıq var. Turistləri qəbul edəcək mehmanxana sayı o qədər də çox deyil. Əsasən Quba və Şahdağ bölgəsində 4-5 ulduzlu otellərə ehtiyac hiss olunur. Regionda 5 ulduzlu mehmanxanaların qiyməti 100–200 dollar arasında dəyişirsə, bu, xarici turistlər üçün əlçatandır. Üstəlik, bəzi otellərdə səhər və axşam yeməkləri qiymətə daxildir.

Qeyd etmək istərdim ki, həm yerli, həm də xarici turistlər üçün Azərbaycanda dövlət tərəfindən qəbul olunmuş yeganə turizm assosiasiyası fəaliyyət göstərir – "Azərbaycan Turizm Agentlikləri Assosiasiyası". Buraya üzv olan şirkətlər dövlət tərəfindən tanınır, müəyyən standartlardan keçir və tələblərə cavab verir. Səyahət planı üçün həmin turizm şirkətlərinə müraciət edə bilərsiniz".

Turizm eksperti Kənan Hənifəyev də,ən çox səyahət edilən yerlərin şimal və şimal-qərb olduğunu deyir:" Bildiyiniz kimi regionlarımızın unikallığı onun təbiəti tarixi və mətbəxi ilə kombinə olmasıdır ki , turist gedəcək hər bir istiqamətdə oranın dəyərlərini adətini mədəniyyətivə tarixi ilə sə tanış olur. Son illərdə demək olar ki ölkəmizin istənilən istiqamətinə səfərlər təşkil edilir və müxtəlif xidmətlərlə zəngindir. Hər bir turistin büdcəsinə uyğun olaraq istirahət məkanları qonaqlama xidmətləri mövcuddur. Sərhədlərin bağlı olması turistlərin daha çox ölkə daxilində istirahət etməsi bir növ regional turizmdə təkan və dəstək olub. Burada həm xidmətin keyfiyyətin artması həmçinin də rəqabətin olması ilə turistə istənilən segmentdə xidmətlər verilir".

***Fatimə Əliyeva***

# Mənzil qiymətləri kəskin bahalaşıb?

***"Azərbaycan əmlak bazarında son illərdə müşahidə olunan qiymət dəyişiklikləri müxtəlif daxili və xarici amillərin təsiri ilə formalaşmışdır". Bu sözləri S A-ya açıqlamasında Əmlak məsələləri üzrə ekspert Elnur Azadov deyib. Elnur Azadov sözlərinə belə davam edib: "Pandemiyanın sosial-iqtisadi nəticələri, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti layihələrinin başlanması, inşaat materialları bazarındakı monopolist meyillər, eləcə də regional və qlobal geosiyasi proseslər qiymətlərin artımında həlledici rol oynamışdır.***

## Əsas amillər

**1.** Pandemiya sonrası kəskin qiymət artımı (2020–2021)

• 2020-ci ilin sonu və 2021-ci ildə pandemiyadan sonra yığılmış tələbin bazara çıxışı nəticəsində qiymətlər qlobal miqyasda artmağa başladı.

• Azərbaycanda da bu proses müşahidə olundu və xüsusilə inşaat sektorunda ciddi qiymət qalxması qeydə alındı.

**2.** İşğaldan azad edilmiş ərazilərdə tikinti layihələri (2021–2022)

• Böyükmiqyaslı bərpa və infrastruktur layihələrinin həyata keçirilməsi inşaat materiallarına tələbatı artırdı.

• Monopolist şirkətlərin qiymət siyasəti nəticəsində materialların dəyəri kəskin yüksəldi (məsələn, armaturların qiyməti 788 manatdan 1250 manata qədər qalxdı).

**3.** Regional geosiyasi faktorlar (2022–2023)

• Rusiya–Ukrayna müharibəsi və miqrant axını inşaat bazarına təzyiq göstərdi.

• Bu mərhələdə qiymət artımı daha da sürətləndi və orta hesabla 15–20% təşkil etdi.

**4.** Qiymətlərin nisbətən sabitləşməsi (2023–2024)

• 2023-cü ilin dekabr ayından etibarən bazarda nisbi stabillik müşahidə edildi.

• 2024-cü ildə qiymət artımı əsasən ilkin bazarda və böyük şəhərlərdə 12–14% diapazonunda dəyişdi.

**5.** Son tendensiyalar (2025)

• 2025-ci ildən etibarən bəzi bölgələrdə (məsələn, Sibir və Ağşəhər massivləri) qiymət artımı daha qabarıq şəkildə özünü göstərdi.

• Hazırda əsas qiymət artımı tələbələrin şəhərlərə gəlişi ilə bağlıdır. Avqustun ikinci yarısından kirayə bazarında tələb-təklif balansı pozulur, nəticədə qiymətlər 25%-ə qədər yüksəlir.

• Ən çox artım ucuz seqmentdə müşahidə olunur (600–700 manatlıq mənzillər), xüsusən də şəhər mərkəzinə və metro stansiyalarına yaxın ərazilərdə.





EKSPERT AÇIQLADI

Azərbaycan əmlak bazarında müşahidə olunan qiymət artımları:

• pandemiya sonrası tələbin kəskin yüksəlişi,

• bərpa və tikinti layihələrinin genişlənməsi,

• inşaat materialları bazarında monopolist meyillər,

• geosiyasi gərginliklər,

• tələbə axını ilə bağlı mövsümi təsirlər fonunda formalaşmışdır.

Hazırkı mərhələdə qiymət artımı daha çox kirayə bazarında və ucuz seqmentdə özünü göstərir ki, bu da sosial baxımdan əlavə təzyiqlər yaradır".

***Ayşən Vəli***

# Zəngəzur dəhlizinin strateji əhəmiyyəti Hörmüz boğazını da üstələyə bilər




**Avqustun 15-də Vaşinqtonda baş tutan yüksək səviyyəli iki və üç tərəfli görüş, imzalanan sənədlər, ifadə olunan Birgə Bəyannəmə bir daha təsdiq edir ki,Tramp marşurutunun (Zəngəzur dəhlizi) açılması zamanı uzaqda deyil. Faktiki dəhlizin açılması tarixi ədalətin bərpası olacaq. İyirminci əsrin əvvəllərində ermənilərə hərbi siyasi dəstək göstərən qüvvələr, o cümlədən Rusiya bölgə də azərbaycanlıların kütləvi şəkil də qətlini həyata keçirməklə Zəngəzurun boşaldılmasına və ərazinin Azərbaycandan qopararaq ermənilərə verilməsinə nail oldular. Bununla da Azərbaycanın Qərb rayonları ilə Naxçıvanın quru əlaqələri kəsildi. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində qazanılan Böyük Zəfər nəticəsində imzalanmış 10 noyabr Bəyannaməsinə əsasən Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin açılmasını qəbul etmişdir. 10 noyabr 2020-ci il Bəyanatının 9-cu bəndə əsasən münaqişə tərəfləri regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi öhdəliyini götürdülər. Bəyanatın həmin bəndində qeyd olunur: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir...Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".**

Zəngəzur dəhlizinin açılması ilə nəhayət Naxçıvan Muxtar Respublikası blokadadan çıxmış olacaq və türkdilli ölkələri birləşdirməklə yanaşı, Azərbaycanın strateji əhəmiyyətini də artıracaq. Bu isə türk dövlətlərin güclənməsinə və beynəlxalq aləmdə rolunun daha da artmasına təkan olacaq. Həm də Zəngəzur dəhlizi öz əhəmiyyətini daha da artırmış olacaq. Hətta Zəngəzur dəhlizinin strateji əhəmiyyəti qlobal enerji ticarətinin onurğa sütunu hesab olunan Hörmüz boğazını üstələyə bilər. Çünki dünyanın istənilən nöqtəsindən Zəngəzur dəhlizi vasitəsi ilə yükdaşınmalar həyata keçirmək mümkün olacaq. Xüsusilə də, Zəngəzur dəhlizi vasitəsi ilə Çindən, Hindistandan, Orta Asiyadan Türkiyə və Avropaya məhsullar daşınması təmin olunacaq. Bu isə tarixi İpək yolunun bərpası deməkdir. Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyasındakı çıxışında demişdir: "Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır.

## Azərbaycan dünyanın itisadi mərkəzinə çevrilir

Hazırda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi sürətlə davam etdirilir. Yeni inşa edilən yol boyunca layihə çərçivəsində zəruri yerlərdə ortalama ümumi uzunluğu 6 kilometr təşkil edən 3 avtomobil tunelinin inşası nəzərdə tutulur. Azərbaycan Prezidenti, fateh Sərkərdə İlham Əliyevin tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 6 və 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 80 kilometrlik hissəsi 3 gediş – 3 gəliş olmaqla 6, qalan 43,8 kilometrlik hissəsi isə 2 gediş – 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub. Hazırda avtomobil yolunun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra olunur. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndiriləcək profilə salınması və birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 29,5 və 21,5 metr təşkil edəcək. Verilən məlumatlra istinadən demək olar ki, artıq Ermənistan tərəfidə hər cür kənar təsirlərə və təzyiqlərə baxmayaraq Tramp marşurutunun (Zəngəzur dəhlizi) inşası istiqamətində işlərə başayır. Bununla bağlı Ermənistanın müvafiq qurumları layihə hazırlayıb və layihənin icrası istiqamətində genişmiqyaslı işləyə başlayıb. Təbii ki, Zəngəzur dəhlizinin inkişafı regionun iqtisadi inkişafına təkan olmaqla bölgədə sabitliyin t\əmin olunmasına mühüm töhvələr vermiş olacaq. Həm də Zəngəzur dəhlizi yalnız Azərbaycan və Ermənistanın marqlarının ifadə edilməsinə xidmət etməyəcək, həm də digər region ölkələrinin, o cümlədən Rusiya, fars-molla rejiminin, Gürcüstan və Türkiyənin maraqlarının təmin olunmasına xidmət edəcək. Dəhliz Rusiya üçün Cənubi Qafqaz və qonşu ölkələrə yük daşımalarında əsas marşruta çevriləcək. Rusiya qatarları və iritutumlu vatomabilləri yüklərlə Azərbaycan ərazisindən Zəngəzur dəhlizinə keçə, ordan Naxçıvan-Türkiyə vasitəsi ilə Avropaya çıxış əldə edə biləck. Eyni zamnda Trmap marşurutu "Zəngəzur dəhlizi) fars-molla rejimi üçün nəfəslik pəncərə rolunu oynaya bilər. Çünki onsuz dünya birliyi tərəfindən təcrid olunan fars-molla rejimi Zəngəzur dəhliznin imkanlarından bəhrələnməklə Avropaya çıxış əldə imkanı qazana bilər. Müəmmalı hal ondan ibarətdir ki. Rusiya və fars molla rejimi Zəngəzur dəhliznin strateji əhəmiyyətini olduğu kimi qəbul etmək istəmirlər. Onlar anlamırlar ki, Zəngəzur dəhlizi onlar üçün xeyir və hər cür marqlarının təmin edilməsinə xidmət edə biləcək dividend gətirə bilər. Bunu real şəkildə anlamadıqlarından cığallıq edir, müxtəlif təxribatları ilə Zəngəzur dəhlizinin açılmasına əngəllər yaratmağa çalışırlar. Rusiya Vaşınqitonda Azərbaycanla ERmənistan arasında sülh müqaviləsinin imzalanmasına dair razılaşma əldə olunduğu və Zəngəzur dəhlizinin açılması istiqamətində anlaşma əldə olunduğu gün Ukraynada Azərbaycana məxsus neft terminalını dronlarla vurdu. Fars-molla rejiminin əmməməli molları hədələyici bəyanatlarla çıxış etdilər. Hətta baş mollanın baş müşaviri Əli Əkbər Vilayəti bəyan etdi ki, onlar ya rusiya ilə bilikdə, ya da təkbaşına Tramp marşurutunun açılmasına imkan verməyəcəklər. Bu azmış kimi fars-molla rejiminin xarici işlər naziri Abbası Araqçı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyana zəng edərək, ondan Zəngəzur dəhlizindən imtina edilməsini tələb etdi. Nəhayət prezident Məsud Pezeşkian Ermənistana səfər edərək, iki gün İrəvanda Zəngəzura mane olmaq üçün nağıllar danışdı.

## Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane ola bilməyəcək

Zəngəzur dəhlizinə qarşı Rusiya tərəfi pərdəarxası mübarizə aparır. O mənada ki, rəsmi Moskva Ermənistandakı koçaryanları, sarkisyanları və nəhayət kilsəni işə qoşmaqla Tramp marşrutunun açılmasını əngəlləməyə çalışır. Bununla yanaşı Rusiya rəsmi şəxsləri vasitəsi ilə Paşinyan rejimini hədələməkdən də çəkinməyir. Avqustun 20-21-də Ermənistanda səfərdə olan Rusiya Baş nazirinin müavini Aleksey Overçuk açıq şəkildə Paşinyanın komandasını təhdid etdiyi bildirilir. O İrəvanda Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşündə açıq mətnlə Zəngəzur dəhlizi ilə bağlı ölkəsinin istəklərindən danışıb. zinin tələbləri ök keçirib.Overçuk i, Ermənistanın gömrük orqanlarının "Tramp yolu"nda gömrük nəzarətini həyata keçirməyəcəyi təqdirdə Ermənistan Avrasiya İqtisadi İttifaqı(AİI) ilə problem yaşayacağını bildirib. Xatırladıb ki, Avrasiya İqtisadi İttifaqı prinsiplərinə görə, AİI-nin vahid gömrük ərazisindən keçən mallar vahid gömrük nəzarətindən keçir. Tramp marşrutu (Zəngəzur dəhliz) Azərbaycanın Naxçıvana ticarət çıxışını təmin edəcək. Rusiyanın baş nazrinin müavini hədə mesajı səsləndirərək qeyd edib ki, əgər Ermənistan Respublikasının gömrük orqanları yollara nəzarəti həyata keçirməzsə, o zaman Ermənistan Avrasiya İqtisadi İttifaqının əsas prinsiplərinin birtərəfli qaydada pozulması ilə qarşılaşacaq.

Rusiyanın, Fars-molla rejiminin Zəngəzur dəhlizinin açılamsından narahat olmaları onu təsdiq edir ki, onlar regionda sabitliyin, azad iqtisadi əlaqələrin qurulmasını istəmirlər. Maraqları ondan ibarətdir ki, region daim münaqişələrlə çalxalansın. Lakin artıq onlar heç nə edə bilməyəcəklər. Zəngəzur dəhlizi xalqımıza böhtəşəm hərbi, siyasi, diplomatik qələbə bəxş edən Fateh Sərkərdə, Prezident İlham Əliyevin dediyi kimi mütləq açılacaq. Çünki bunu biz istəyir. Ona görə ki, millət olaraq biz qalib millətik. Biz istənilən tələbi irəli sürüb, onu qəbul etdirə bilərik. Zəngəzur dəhlizi açılınca dünyanın diqqəti regiona yönələcək. Hətta elə bir vəziyyət yaranacaq Zəngərur dəhlizi strateji əhəmiyyətinə və qlobal gücünə görə Hörmüz boğazını üstələyəcək. Zəngəzur dəhlizi də Hörmüz bağazı kimi təkcə iqtisadi deyil, həm də böyük güclərə təsir etmək imkanına dəhliz olacaq.

## Hörmüz boğazı ilə Zəngəzur dəhlizinin fərqi

Hörmüz boğazı ilə Zəngəzur dəhlizinin fərqi yalnız ondan ibarətdir ki, birinci su, ikinci isə quru yoludur. Zəngəzur dəhlizin uzunluğu 40 kilometr, eni isə 15 kilometrə yaxın olacaq. Hörmüz boğazının uzunluğu 50 kilometr, eni isə 33 kilometrdir. Hörmüz boğazı əsasən Omana aid olsa da fars-molla rejimi bu ərazilərə burnunu müxtəlif vasitələrlə soxmaqdadır. Digər diqqətçəkən məqam ondan ibarətdir ki, fars-molla rejimi boğazda müxtəlif terrora uyğun fəaliyyətlə meydan sulamaqdadır, Oman isə proseslərə ümumiyyətlə qatılmır. Beynəlxalq hüquqi nöqteyi-nəzərdən boğaz sülh yolu ilə keçid azadlığını təmin edən Birləşmiş Millətlər Təşkilatının Dəniz Hüququ Konvensiyasına uyğun olaraq beynəlxalq boğulma nöqtəsi kimi müəyyən edilir. Bu kontekstdə heç bir ölkənin boğaz üzərində mütləq suverenliyi yoxdur. Qeyd etdiyim kimi Oman boğaza daha yaxın olsa da, proseslərə müdaxilə etməyir. Bundan istifadə edən hazır ki, fars –molla rejimi Hörmüz boğazı üzərində hakim mütləq olmaq iddiasına düşür. Ancaq ABŞ Körfəzdəki müttəfiqlərinin enerji təhlükəsizliyini təmin etmək və fars –molla rejiminin gözlənilən təxribatlarının qarşısını almaq üçün bölgədə daimi hərbi mövcudluğunu saxlayır. ABŞ-ın 5-ci Donanmanın Hərbi Dəniz Qüvvələri Hörmüz boğazında patrul edir və ticarət keçidlərinin təhlükəsizliyini təmin edir. ABŞ-ın bu strateji iştirakı boğaza nəzarətin tam şəkildə hansı dövlətə aid olduğunu müəyyənləşdirməyə imkan vermir. Hörmüz boğazı təkcə regional deyil, həm də qlobal miqyasda strateji və iqtisadi təsir yaradan keçiddir. Neft və təbii qaz nəqlinin böyük bir hissəsi bu darboğazdan keçməklə yanaşı, regional güclər arasında hərbi və diplomatik güc mübarizələrinə də ev sahibliyi edir. Ona görə də boğazın əhəmiyyəti enerji nəqlindən çox-çox kənarda çoxşaxəli qlobal problem kimi qəbul edilməlidir. Səudiyyə Ərəbistanı, Küveyt, Fars-molla rejimi, İraq, Bəhreyn, Qətər, Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrdən gələn tankerlər bu boğazdan keçərək Avropa, Asiya və Amerika bazarlarına yollanır. Hörmüz boğazı qlobal enerji ticarəti üçün kritik bir nöqtədir.

Hörmüz boğazı Yaxın Şərqdə qüvvələr balansı baxımından kritik bir nöqtədədir. Fars-molla rejiminin boğazın şimal sahillərinə nəzarət etməsi, vaxtaşırı keçidi məhdudlaşdırmaqla hədələməsi və nəticədə Qərb dövlətlərinin bölgədə hərbi mövcudluğu bu dəniz yolunu geosiyasi rəqabətin mərkəzinə gətirib. NATO ölkələri, Körfəz Əməkdaşlıq Şurası və Asiya-Sakit Okean dövlətləri boğazın təhlükəsizliyinə birbaşa təsir edən siyasətlər hazırlayırlar. Hətta İsrail fars-molla rejimini ardıcıl olaraq bombalayıb, generallarını bir-bir məhv etdiyi 12 günlük müharibə dövründə Hörmüz boğazını bağlayacağını bəyan etmişdir. Bu zaman dünya birliyi, xüsusi ilə də ABŞ və Avropa fars-molla rejimini sərt hədələməyə başladığı zaman əmməməli mollar rəqiblərini Hörümz boğazında minalara basdırmaqla təhdid etdi. Təbii ki, fars-molla rejimi belə bir terror vasitəsinə ələ atardısa, bu neft və neft məhsullarının indikində 4-5 dəfə artıq bahalaşmasına gətirib çıxarardı. Enerji idxalından asılı olan ölkələr iqtisadi daralma riski ilə üzləşə bilər, eyni zamanda enerji ixrac edən ölkələr üçün tranzit strukturlarının etibarsızlığı yeni logistika və investisiya problemləri yarada bilərdi. Ancaq Fars-molla rejimi terror vasitəsinə əl ata bilmədi. Çünki ABŞ-ın müdaxiləsi ilə İsrail Fars-molla rejimini sıradan çıxartmaq siyasətini dayandırdı.

Bir sözə, onu demək olar ki, Zəngəzur dəhlizi istifadəyə verildikdən bir müddət sonra Hörmüz boğazı kimi strateji əhəmiyyət daşıyacaq, hətta bir qədər boğazı üstələyəcək. Bu üstünlükdən yalnız region deyil, dünyanın istənilən ölkəsi bəhrələnmək imkanı qazanacaq.

***İLHAM ƏLİYEV***





# Dünyada su böhranı: Təhlükə qapımızı kəsdirib, Azərbaycanı nə gözləyir?



Figure 1: Percentage of population experiencing severe water scarcity at least one month of a year.
Source: Water Footprint Network
Data from M.M. Mekonnen & A.Y. Hoekstra, University of Twente

**СТРАНЫ, ЛИДИРУЮЩИЕ ПО ЗАПАСАМ И ПОТРЕБЛЕНИЮ ПРЕСНОЙ ВОДЫ**

| Место в мире | Страна | Размер водных ресурсов, км³ | Место в мире | Страна | Потребление воды, км³ |
|---|---|---|---|---|---|
| 1 | Бразилия | 8233,0 | 1 | Индия | 645,8 |
| 2 | Россия | 4507,3 | 2 | Китай | 630,3 |
| 3 | США | 3069,0 | 3 | США | 479,3 |
| 4 | Канада | 2902,0 | 4 | Пакистан | 169,4 |
| 5 | Индонезия | 2838,0 | 5 | Япония | 88,4 |
| 6 | Китай | 2829,6 | 6 | Таиланд | 87,1 |
| 7 | Колумбия | 2132,0 | 7 | Индонезия | 82,8 |
| 8 | Перу | 1913,0 | 8 | Бангладеш | 79,4 |
| 9 | Индия | 1896,7 | 9 | Мексика | 78,2 |
| 10 | ДРК | 1283,0 | 10 | Россия | 76,7 |

***Son dövrlərdə dünyada iqlim dəyişmələri, sənayenin sürətli inkişafı, əhalinin çoxalması və içməli su ehtiyatlarına təzyiqin artması özü ilə çoxsaylı problemlər gətirib. Bu isə öz növbəsində suvarma suyu və içməli su ilə təminatın çətinləşməsinə səbəb olub. Hazırda dünyada 1 milyarda yaxın insan içməli su tapa bilmir, daha 2 milyard insan isə çirkli su içməli olur. BMT-nin hesablamalarına görə, dünyanın yarısından çox hissəsi su çatışmazlığından əziyyət çəkir və bu problem 2030-cu ilə qədər 50 faiz artacaq. Dünya əhalisinin 40%-nin yaşadığı 80 ölkə su çatışmazlığı yaşayır. Azərbaycan da əhaliyə və əraziyə nisbətdə su ehtiyatları ilə çox zəif təmin olunmuş ölkələrdəndir və bizdə də bu sahədə vəziyyət qənaətbəxş deyil.***

ARAŞDIRMA

### Su planetində su böhranından qurtulmaq üçün nə edirlər?

Dünya səthinin 70 faizini su təşkil edir. Bu səbəblə planetimizi su planeti adlandırmaq olar. Lakin dünyadakı su həcminin yalnız 2 faizi içməyə yararlıdır. Və içməli suyun da 2 faizi əlçatandır. Qalan hissələr buzlaqlarda, Antraktida və Arktikada cəmləşib.

Hazırda davam edən qlobal istiləşmə və quraqlığın artması problemi daha da kəskinləşdirir. Təhlükənin miqyası getdikcə böyüyür. Beynəlxalq ekoloji və iqtisadi araşdırma mərkəzlərinin proqnozuna görə, qarşıdan qlobal quraqlıq və su çatışmazlığı gəlir. Bunun nəticəsində ciddi ərzaq qıtlığı yaranacaq. Belə bir vəziyyətdə isə su ehtiyatları çox olan ölkələr vəziyyətdən çıxa biləcək.

Vəzuiyyətin hətta su müharibələrinə səbəb olacağıq proqnoz edilir. Artıq Şimal-Şərqi Afrika ölkələri arasında Nil çayının suyu üzərində gərginlik az qala müharibə vəziyyətinə gəlib. Dəclə və Fərat çayları ilə bağlı da eyni vəziyyətdir- Türkiyə-Suriya və İraq arasında ciddi gərginlik var.

Ölkələr su qıtlığıyla bağlı müxtəlif tədbirlər görür. Belçika hökumətinun qəbul etdiyi qanuna əsasən, yeni tikilən çoxmərtəbəli binalarda və şəxsi evlərdə yağış suyu üçün çənlər qoyulması məcburidir. Çənlərdə toplanan sudan ayaqyolunun və avtomobillərin yuyulması, həmçinin bağın suvarılması üçün istifadə etmək mümkün olacaq. Bu qənaətcil üsul, ilk növbədə, ailə büdcəsində su ilə bağlı məsrəfləri azaltmağa, həm də quraqlıq mövsümündə içməli su qıtlığını aradan qaldırmağa kömək edəcək.

Su ehtiyatlarının ən bol olduğu ölkələrdən olan Rusiyada su mənbələrinin qorunması və sudan qənaətli istifadə ilə bağlı xüsusi siyasət həyata keçirilir. Qəfil baş verə biləcək quraqlıqdan qorunmaq üçün çox sayda su anbarları, süni göllər yaradılır, artezianlar qurulur, bir yerdə artıq olan su mənbələrinin, suyun az olduğu başqa ərazilərə yönəldilməsi üçün kanallar çəkilir.

Türkiyədə də su anbarları yaradılır. Xüsusən də Dəclə, Fərat, Kür kimi transsərhəd çaylarda yaradılmış belə anbarlar baş verə biləcək quraqlıq zamanı böyük ehtiyatın mövcudluğuna imkan verəcək. Düzdür, bununla bağlı Suriya və İraqla ciddi mübahisələr var ki, həmin çayların suyundan onlara düşən payın kəskin azalması iddia olunur. Bu günlərdə su anbarlarının quruması nəticəsində Türkiyədə Ankara, Bursa kimi iri şəhərlərin su ehtiyatının tükənməkdə olduğu və ağır vəziyyət yaranacağı haqda həyəcanlı məlumatlar var.

İranda, Qazaxstanda və digər Orta Asiya ölkələrində də müəyyən tədbirlər həyata keçirilir. Bir çox ölkələr dərinliklərdə yerləşən yeraltı su hövzələrinə çatmaq və həmin suyun səthə çıxarılması üçün böyük layihələrin icrasına başlayır.

### Azərbaycanda su problemi: vəziyyət necədir?

Beləliklə, dünya qarşıdan gələn su böhranına hazırlaşır. Təhlükə getdikcə artır. Azərbaycan da bu təhlükədən sığortalanmayıb. Çünki ölkəmiz də dünyanın bir hissəsi kimi qlobal iqlim dəyişiklərinin, dünyada gedən proseslərin təsirinə məruz qalır. Üstəlik, daxili su və qida ehtiyatlarımız da əhalini tam təmin etmək üçün yetərli deyil.

Azərbaycan əhalinin sayına və əraziyə nisbətdə su ehtiyatlarının az olduğu ölkələrdəndir. Adambaşına düşən və ərazinin hər kv kilometrinə düşən su ehtiyatına görə Cənubi Qafqazda ən çətin vəziyyət bizdədir. Azərbaycanda ümumi su ehtiyatı 31, Gürcüstanda 63, Ermənistanda 8 kubkilometrdir. Yerli su ehtiyatlarına gəlincə, ölkəmizdə 10.3, Gürcüstanda 53.6, Ermənistanda 6.5 kubkilometr yerli su ehtiyatı var ki, bunun bir il ərzində hər bir nəfərə düşən hissəsi Azərbaycanda 1.03, Gürcüstanda 13.7, Ermənistanda isə 2.2 min kubmetrdir. Ölkəmizin hər kvadrat kilometrinə 119 min kubmetr yerli su ehtiyatı düşür. Gürcüstanda bu rəqəm 769 min, Ermənistanda isə 218 min kubmetrdir.

Azərbaycanın su mənbələrinin təxminən 70 faizinin ölkə sərhədlərindən kənarda formalaşır. Qlobal quraqlıq və su problemi kəskinləşəndə ölkə xaricindən gələn su mənbələrindən su götürmək mümkün olmaya bilər. Bu vəziyyətdə qonşu ölkələr transsərhəd çaylardakı su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Gürcüstan Kürün, Ermənistan Arazın, Rusiya Samurun bütün suyunu özlərinə sərf edəcək. Digər kiçik çayların çoxunun da mənbəyi qonşu ölkələrdədir. Bu çox ciddi strateji təhlükədir.

Ona görə də, su resurslarının qorunması, onlardan səmərəli istifadə, su mənbələri çirklənməsinə və qurumasına səbəb olan amillərin aradan qaldırılmasına ehtiyac böyükdür və bu məsələni təkcə inzibati metodlarda tənzimləmək mümkün deyil. Əhalinin bu işdə iştirakı da son dərəcə vacibdir.

### “Bəzi hallarda itkilər 40-50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il iyulun 23-də keçirdiyi növbəti videoformatlı müşavirədə vətəndaşları uzun müddətdir narahat edən su qıtlığı, su təsərrüfatındakı problemlərə toxunaraq demişdi: “Su resursları ekoloji tarazlığa, kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərir. Biz kənd təsərrüfatımızı intensiv yollarla inkişaf etdirməliyik və buna nail olmaq üçün kifayət qədər su mənbələrimiz olmalıdır və bu, var. Sadəcə olaraq, əgər, dəhşətli dərəcədə itkilər olmasaydı, biz mövcud su resursları ilə özümüzü tam təmin edə bilərdik. İndi bu məsələ araşdırılır, bəzi hallarda itkilər 40 faizdir və 50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur”.

*Ardı Səh. 11*

# Dünyada su böhranı: Təhlükə qapımızı kəsdirib, Azərbaycanı nə gözləyir?



Əvvəli-Səh-10

Dövlət başçısı çıxışında sadə vətəndaşların su qıtlığı ilə üzləşməsinin yolverilməz olduğunu, bunun dövlət maraqları, yürüdülən iqtisadi inkişaf xətti ilə ziddiyyət təşkil etdiyini demişdi. Son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişdi. Lakin problemlər var.

Prezident onu da vurğulamışdı ki, əgər operativ tədbirlər görülməsə, 2030-cu ildə ölkəmizdə səhralaşma prosesi sürətlə gedəcək: "Nədir, siz istəyirsiniz Azərbaycan səhraya dönsün? Ona görə bu münasibətə son qoyulmalıdır. Qüsurlara yol verən, bu məsələyə laqeyd yanaşan bütün vəzifəli şəxslər cəzalandırılmalıdır".

Prezident İlham Əliyevin həmin müşavirədə səsləndirdiyi tənqidlər tam əsaslıdır. Su təsərrüfatının qaydaya salınması və gözlənilən böhrana hazır olmaq üçün bəzi tədbirlərin həyata keçirilməsinin vacibdir. Dövlət başçısının su təsərfüfatının effektiv idarə edilməsi, su ehtiyatlarından səmərəli istifadə, yeni su mənbələrinin yaradılması ilə bağlı fərman və sərəncamları var. Bu istiqamətdə xeyli işlər də görülüb. Su anbarlarının tikintisi, artezianların qazılması və s. Lakin bunlar problemin miqyasına adekvat deyil.








| İçməli su qıtlığının mövcud olduğu ölkələr ($m^3$) | İçməli su ilə orta dərəcədə təmin olunmuş ölkələr ($m^3$) | İçməli su ilə yaxşı təmin olunmuş ölkələr ($m^3$) |
|---|---|---|
| | | |



### Günün əsas sualı: nə etməli?

Azərbaycanın içməli su ehtiyatlarının 25 faizi işğaldan azad edilmiş Qarabağ bölgəsində yerləşir. Bu böyük bir ehtiyatdır və ətraf regionların da təminatında ciddi paya malik olacaq. Lakin yeni su ehtiyatları əldə etməyimiz bizi heç bir halda arxayın salmamalıdır. Sudan səmərəli istifadə prioritet olmalıdır. Su mənbələrini artırmaq mümkün deyil, təzədən çay yaradası deyilik, dəniz yaradası deyilik. Lakin mövcud su ehtiyatlarından səmərəli və qənaətli istifadə etməklə su böhranının qarşısını almaq olar.

Parkların və bağların suvarılması zamanı bəzən həddən çox su buraxılır ki, bu həm bitkilərə, torpağa zərərdir, həm də su israfıdır. Damcılı və ya çiləmə suvarma sistemi vasitəsilə bağları, əkinləri, bağları dəfələrlə az su ilə daha effektiv suvarmaq mümkündür.

Torpaq suvarma kanalları ilə ötürülən suda itkilər çox olur. Lakin beton kanallarda su itkisi dəfələrlə azalır. Ona görə də beton kanalların çəkilməsi təmin edilməlidir.

Bundan başqa hökumət sahibkarlara, fermerlərə güzəştli kreditlər verə bilər-yağış suyundan iistifadənin təmin edilməsi, kiçik su anbarlarının tikilməsi və artezian quyularının qazılması üçün. Bu halda əkinçilər yayda quraqlıq yarananda həmin artezianlar vasitəsilə təsərrüfatlarını məhv olmaqdan, özlərini isə müflis olmaqdan xilas edə bilərlər.

Hamımız bilirik ki, içməli sudan texniki məqsədlərlə istifadə edilir. Zavodlar, fabriklər, müəssisələr içməli suyu sənaye məqsədilə israf edir. Avtomobillər də içməli suyla yuyulur, yaşıllıqlar da içməli suyla suvarılır və sair. Bu isə içməli su mənbələrinə təzyiqi artırır və ekoloji problemlərə gətirib çıxarır. Məsələn, Oğuz-Qəbələ-Bakı su kəməri gələn böyük həcmdə su mənbə ətrafında səhralaşmaya səbəb olur. Kürdən çox su götürdüksə çayın suyu kəskin azalır və s. Ona görə də, kanalizasiya sularının təmizlənib texniki su kimi sənaye müəssisələrinə, fabrik və zavodlara ötürülməsi təmin edilməlidir.

